

Amerika Birləşmiş Ştatları Suriyaya hərbi müdaxilə məsələsində özünə dəstək axtarmaqda davam edir. Dövlət katibi Con Kerrinin Fransada keçirdiyi rəsmi görüşlərin nəticəsi Amerika Birləşmiş Ştatlarının xeyrinə yekunlaşıb.

Qərbi Avropaya qısa səfərdə olan ABŞ dövlət katibi Con Kerri Parisdə Fransanın xarici işlər naziri Loran Fabiusla görüşüb. Görüşdən sonra keçirilən mətbuat konfransında Con Kerri növbəti dəfə Suriya rejiminə qarşı ritorikanı işə salaraq, qətllərə qarşı sərt mesajın göndərilməli olduğunu vurğulayıb. ABŞ dövlət katibi insanların vəhşicəsinə qətlinə sadəcə “lal-dinməz seyrici” qalmağın düzgün olmadığını deyib: “Diktatora yer üzündə ən qorxulu silahlardan istifadəyə yol vermək olmaz. Bəşər Əsəd kimi diktatorları törətdiyi qırğınlara görə məsuliyyət qarşısında qoyacaq açıq və effektiv cavab verməyin vaxtıdır”.

Daha sonra çıxış edən Fransalı diplomat, xarici işlər naziri Loran Fabius siyasi həll yolu ilə Suriya rejimini cəzalandırmağın mümkünsüzlüyündən söz açaraq, Bəşər Əsədin özünün məğlub olduğunu anlayacağı günə qədər heç bir danışıqlarda iştirak etməyəcəyini vurğulayıb: “Müstəqil ekspertlər yekdilliklə kimyəvi hücumun baş verdiyini bildirib. Onlar məhz, müstəqil ekspert olduqlarından dedikləri bizim dediklərimizdən daha tutarlıdır”

Qeyd edək ki, əsas güc dövlətlərindən biri olan Fransa Suriyaya hərbi müdaxilə məsələsində Birləşmiş Ştatların mövqeyini müdaifə edir.